Səh. 2 Vakuum – Azər Musaoğlu
Səh. 3 Sükuta boğulan dəyərlər – Hacı Bəkiroğlu
Səh. 5 Yeni dərslik, köhnə problem – Hürnisə Əhmədova
Səh. 6 Vəzifə – Binəli İslamoğlu
Səh. 2 Mədəniyyətin sütunları – Cəlal Yadigarlı
Səh. 4 11 İLLİK TƏHSİLƏ KEÇMƏKLƏ MƏKTƏBİ, ŞAGİRDİ VƏ MİLLİ TƏDRİS PLANINI NƏ GÖZLƏYİR?
Səh. 7 Lermontovun "Aşıq Qərib" nağılının gürcü variantları ilə müqayisəsi – Mziya Çaçava

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR
2025-Cİ İL
№ 19 (236)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ŞALVA PAPUAŞVİLİ: "TÜRKİYƏ GÜRCÜSTANIN STRATEJİ MÜTTƏFİQİ, ƏN BÖYÜK TİCARƏT TƏRƏFDAŞI VƏ ETİBARLI QONŞUSUDUR"



"Türkiyə Gürcüstanın strateji müttəfiqi, ən böyük ticarət tərəfdaşı və etibarlı qonşusudur". Bu sözləri Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili Türkiyənin Cümhuriyyət Günü münasibətilə təşkil olunan tədbirdə söyləyib.

Onun sözlərinə görə, Türkiyə Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə sarsılmaz dəstəyini göstərir və Qara dəniz ilə Cənubi Qafqaz regionlarında sülh və sabitliyin təmin edilməsində fəal iştirak edir.

Parlament sədri, həmçinin Gürcüstan və Türkiyə arasında əməkdaşlığın mürəkkəb və qeyri-sabit geosiyasi şəraitdə daha da gücləndirilməsinin ölkələrin gələcək tərəqqisi üçün vacib olduğunu qeyd edib. Demokratik seçkilər vasitəsilə xalqların iradəsində ifadə olunan bir-birinin müstəqilliyinə hörmətin Türkiyə ilə strateji əlaqələrin təməl daşı olduğunu vurğulayıb.

Şalva Papuaşvili həmçinin parlamentlərarası əlaqələrin önəmini qeyd edərək, bu ilin iyun ayında Türkiyəyə səfər etdiyini və TBMM sədri Numan Kurtulmuşla konstruktiv və səmərəli görüşlər keçirdiyini bildirib. O vurğulayıb ki, Gürcüstan və Türkiyə birlikdə Avropa ilə Asiyanı birləşdirən tarixi imkanlar dəhlizi yaradır.

## İRAKLİ KOBAXİDZE KVEMO KARTLİYƏ YENİ QUBERNATOR TƏYİN EDİB



Baş nazir İrakli Kobaxidze İlia Calaqaniyanı Kvemo Kartli regionunun dövlət nümayəndəsi (qubernator) təyin edib.

Baş nazir yeni qubernatora yeni vəzifəsində uğurlar arzulayıb və regionda davam edən, eləcə də planlaşdırılan layihələrin səmərəli icrasında onun rolunun vacibliyini vurğulayıb.

İ.Kobaxidze qeyd edib ki, layihələrin keyfiyyətli və vaxtında həyata keçirilməsi ilə yanaşı, yerli əhalinin ehtiyaclarına və mövcud çağırışlara operativ reaksiya vermək əsas prioritetlərdən biridir.

Baş nazir həmçinin bildirib ki, Kvemo Kartli regionunun inkişaf məsələləri Gürcüstanın regional inkişaf və infrastruktur naziri tərəfindən xüsusi diqqətdə saxlanılacaq.

Qeyd edək ki, İlia Calaqaniya ixtisasca hüquqşünasdır. O, bundan əvvəl Kvemo Kartli üzrə dövlət nümayəndəsinin birinci müavini vəzifəsində çalışıb. Calaqaniyanın dövlət idarəçiliyi və hüquq-mühafizə orqanlarında uzun illər iş təcrübəsi var. O, müxtəlif bölgələrdə rayon prokuroru vəzifəsində çalışıb və hüquq-istintaq sahəsində peşəkar təcrübəyə malikdir.

## İRAKLİ KOBAXİDZE TÜRKİYƏNİN SƏHİYYƏ NAZİRİ İLƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİNİ MÜZAKİRƏ EDİB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze 21 oktyabrda Tbilisidə rəsmi səfərdə olan Türkiyə Cümhuriyyətinin səhiyyə naziri Kamal Memişoğlu ilə görüşüb.

Gürcüstan hökumət administrasiyasının məlumatına görə, görüşdə Gürcüstan ilə Türkiyə arasında strateji tərəfdaşlıq və səhiyyə sahəsində fəal əməkdaşlıq müzakirə olunub. Qeyd edilib ki, iki ölkə arasında səhiyyə sahəsində sıx tərəfdaşlıq vətəndaşların keyfiyyətli tibbi xidmətlə təmin olunması və dərman vasitələrinə maliyyə imkanlarının yaradılması baxımından konkret hiss olunan nəticələr verib.

İ.Kobaxidze Türkiyənin səhiyyə nazirinə Gürcüstanın səhiyyə sektoruna göstərdiyi dəstəyə görə təşəkkür edib və iki ölkənin səhiyyə qurumları arasında əməkdaşlıq memorandumunun imzalanması tərəfdaşlığın inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

## AZƏRBAYCANLA DOSTLUQ QRUPUNA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Gürcüstan parlamentində Azərbaycan parlamenti ilə əlaqələr üzrə dostluq qrupuna yeni rəhbər təyin olunub.

Gürcüstan parlamentinin Regional siyasət və özünüidarəetmə komitəsinin sədri İrakli Kadaqişvili Azərbaycanla dostluq qrupuna rəhbərlik edəcək.

Qanunverici orqanın büro iclasında məsələ səsə qoyularaq qəbul olunub və təsdiqlənmək üçün plenar iclasa tövsiyə edilib.

Qeyd edək ki, Azərbaycan parlamenti ilə dostluq qrupunun əvvəlki rəhbəri Givi Mikanadze bu ilin iyununda Gürcüstanın təhsil, elm və gənclər naziri təyin edildiyi üçün bu vəzifə boş idi.



# VAKUUM

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Varlıların daha da varlandığı, kasıbların daha da yoxsullaşdığı bir dünyada və zamanda bizim qəzet yazmağımızı yel dəyirmanı ilə döyüşməyə bənzədirlər. Kranı açanda su yerinə az qala informasiyanın axdığı bir vaxtda bizim informasiya vakuumunda qalan bölgələrimiz (Marneuli qismən istisnadır. Orada ən azı "Radio Marneuli" kimi Azərbaycan və gürcüdilli müstəqil media var.) üçün müstəqil qəzet, sayt, radio, televiziya doğrudanmı lazım deyil? Doğrudanmı yaşadığımız kənddə, şəhərdə, bölgədə, ölkədə nələrin baş verdiyindən xəbərdar olmaq istəmirik? Məsələn, Qardabanidə elə adamlar var şəhərin merini tanımır. Son yerli seçkilərdə heç namizədlərin kim olduğunu yerli sakinlər, seçicilər (!) bilmirdilər. Yerli büdcədən və planlaşdırılan layihələrdən əhalinin xəbəri yoxdur və sair. Bütün bunlar həm də yerli medianın olmamasına görə baş verir.

Yerli əhali yerli informasiyanı ya mərkəzi televiziyalar vasitəsi ilə, ya da malalanmış şəkildə Azərbaycan televiziyaları vasitəsi ilə əldə edir. Mərkəzi medianı yalnız gürcü dilini bilənlər izləyə bilirlər. Buna baxmayaraq, yenə də bölgələrdə baş verən və verməyən ictimai, siyasi, mədəni proseslər kölgədə qalır, işıqlandırılmır. Olsa-olsa, ayda ildə bir namaz, onu da şeytan qoymaz. Ya gərək qız qaçırıla, ər arvadını öldürə, ya da narkotik alverçisindən-zaddan tutalar ki, bölgələrin adları mərkəzi mediada hallana. Yəni hansısa mərkəzi media nümayəndəsi, jurnalist, müxbir, bloqer, tik-toker gəlib yerli özünüidarəetmə orqanlarının qapısını açıb yerli məsələlərdən danışası, yerli problemlər haqqında suallar verəsi, yerli prosesləri işıqlandırası deyil. Bunun üçün yerli media lazımdır, bu medianı ayaqda tutacaq, yaşadacaq, xalqın səsini bütün dünyaya çatdıracaq, yerli əhalinin gözü, qulağı, ağzı olacaq azad, vicdanlı, qərəzsiz işləyəcək sağlam komanda lazımdır.

Bu gün gənc nəsil sosial şəbəkələrdə avaralanır, harada ki yerli informasiyadan əsər-əlamət belə yoxdur. Halbuki texnologiyanın bu imkanlarından yararlanıb hərə öz yaşadığı məhlənin, kəndin, şəhərin problemlərini çəkərək, danışaraq, yazaraq işıqlandıra bilər. Məsələn, Qardabaninin mərkəzi Ağmaşenebeli küçəsindəki binaların kanalizasiyası yayı-qışı aşıb-daşır, çirkli su supermarketin yanı ilə mərkəzi yola qədər axır. Üfunətdən nəfəs almaq olmur. İnsanlar bu murdar, xəstəlik mənbəyi olan çirkli axıntını məcbur ayaqlayıb ərzaq satılan marketə girib-çıxırlar. Təsəvvür edin, bu, nə deməkdir. Vəziyyətin yayı-qışı eyni olmasından bəlli olur ki, məsələ ilə maraqlanan yoxdur, amma yerli media olsaydı problemi işıqlandırardı, aidiyyəti qurumların qapısını açardı, sual verərdi. Kameradan qorxan hökumət nümayəndələri də məcbur məsələ ilə maraqlanar və səs-küy yaranmamış həllinə çalışardılar. Və ya sosial mediada avaralanların hərəsi bu ürəkbulandıran mənzərəni çəkib paylaşsa, etiraz etsə, şikayətlənsə, yenə də məsələyə diqqət çəkə bilərlər. Axı dünyada vətəndaş jurnalistikası, vətəndaş mediası deyilən anlayışlar var. Yaşlı nəsil isə çayxanalarda avaralanır ki, faktiki olaraq bölgələrdə çayxanalardan başqa "informasiya mərkəzləri", "informasiya agentlikləri" yoxdur.

Varlıların daha da varlandığı, kasıbların daha da yoxsullaşdığı bir ölkədə və zamanda bizim qəzet yazmağımızı yel dəyirmanı ilə döyüşməyə bənzədən bu amorf kütlə öz axmaq, kölə, qorxaq düşüncəsini dəyişməyənə qədər, bu düşüncə tərzindən azad olmayana qədər, öz komfort zonasından çıxıb etiraz etməyənə qədər, sual verməyənə qədər, hesabat istəməyənə qədər, tələb etməyənə qədər bölgələrimiz informasiya vakuumunda qalacaq. Yerli özünüidarəetmə orqanlarında baş verənərdən nə yerli əhalinin, nə də mərkəzi hakimiyyətin xəbəri olacaq.

Varlıların daha da varlandığı, kasıbların daha da yoxsullaşdığı bir ölkədə və zamanda bizim qəzet yazmaqda məqsədimiz isə bu məhdud imkanlarla bacardığımız qədər xalqın səsi, əhalinin sözü, qaranlıqları aydınlatmağa çalışan işığı, güzgüsü olmaqdır. Varlanmaq istəsəydik sizin "məsləhətlərinizi" dinləyib özümüzə başqa peşə, məşğuliyyət tapardıq.

O ki qaldı yel dəyirmanı ilə döyüşməyə, az aşım, ağrımaz başım, ac qulağım, dinc qulağım deyib kənardan passiv tamaşaçı olmaq, başqalarının mübarizəsi ilə qazanılan şəraitdən yararlanmaq heç yel dəyirmanı ilə də döyüşmək deyil, çünki döyüşmək feilinin icrası üçün ən azı ölü kimi yatdığın yerdən ayağa qalxıb irəli addım atmaq, hərəkət eləmək lazımdır.

# MƏDƏNİYYƏTİN SÜTUNLARI



Mədəniyyət insan fəaliyyətinin ümumi texnologiyası, dili, identliyi, vətəni, tarixi, qanı ortaq olan insanların ümumi yaşam tərzidir. Hər coğrafiyada, hər toplumda yaşamın fərqli tərzi, fərqli qaydaları olur. Hər toplum həyat ilə özünəməxsus bir dil tapır. Məhz insanın fəaliyyət texnologiyasının tarixiləşməsindən mədəniyyət doğur. Atalarımız hansı yollarla gedir, hansı üsullarla həyatda qalırdısa biz də həmin yolla getməyə çalışırıq. Bir tərəfdən də həyatla mübarizənin bu tərzi sanki bizim qanımıza hopmuş olaraq doğuluruq. Anamızın südü ilə tək qidalanmırıq, həm də müəyyən qədər onun həyata baxış tərzini, təfəkkürünü mənimsəyirik. İnsan böyüdükcə baxışları dəyişə bilir. Lakin mən deyə bilərəm ki, doğulduğumuz cəmiyyətin mədəniyyətinin çox kiçik bir hissəsi belə olsa daima bizimlə yaşayır. İnsan kimliyinin xüsusiyyətlərini tam olaraq üzərindən ata bilmir.

Tarix boyu əcdadımızın formalaşdırdığı həyat tərzinə biz mədəniyyət deyirik. Mədəniyyət o qədər böyük bir qavramdır ki, onun haqqında bəzən cildlərlə kitab da yazılsa kifayət etmir. Mədəniyyət sadəcə həyatla mübarizədə bir yol deyil, həmçinin təfəkkürün formalaşmasında, insanın daxili inkişafında bir yol hökmündədir. Toplumu bir arada tutan ən önəmli ünsürlərdən biri də məhz elə mədəniyyətdir. Çünkü iki insanın həyat tərzi tamamən fərqli olsa onlar bir milli toplum yarada bilməz.

İnsanların yaşam tərzi əsrlərdir ki, etnoloqların, antropoloqların, sosioloqların, tarixçilərin və s. araşdırma mövzusudur. Bəşəriyyət tarixində bir çox böyük mədəniyyət qurulub və hər biri tarixdə xüsusi iz buraxıb. Mədəniyyət ancaq insanın dili, dini, sənəti, xarakteri deyil. Mədəniyyət insanın bütün fəaliyyətində tutduğu yoldur. Əkinçilik, maldarlıq, ticarət, ustalıq və s. kimi sahələr də böyük mədəniyyətdir. Bütün bu sahələr və onların iş mexanizmi insanın şəxsiyyətinin formalaşmasında birbaşa rol oynayır.

Bəs bu gün mədəniyyətimiz təhlükədədirmi? – Bəli, təəssüf ki, təhlükədə olan bir çox dəyərlərimizdən biri də mədəniyyətimizdir. Texnologiya əsri bir çox sənətlərin yox olmasına vəsilə oldu. Məsələn, bu sahələrdən biri nənələrimizin xalçaçılıq sənətidir. Bəlkə biz axırıncı nəsilik ki, həmin xalçaları gördük. Nənəmin xalçaçılığa olan bağlılığı, vurduğu naxışlarda canlandırdığı əfsanəvi nümunələr, incə yanaşmalarla yaratdığı böyük əsərlər heç vaxt mənim yadımdan çıxmayacaq. Mən uşaq da olsam nənəmdə olan yaradıcı ruhu aydın sezə bilirdim. Məhz xalçaçılıq kimi sənətlər qadınların yaradıcılığında, şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayırdı. Qadın öz daxili zənginliyini, zərif duyğularını xalçada canlandırırdı. Bununla həm cəmiyyətimiz, həm mədəniyyətimiz zənginləşirdi. İndi həmin işi texnika görür, amma xalçalarda insan ruhu olmadığı hiss olunur.

Süni intellekt əsrinin fəsadları bizim daxili zənginliyimizin məhv olmasına gətirib çıxarır. Xüsusilə, bu son zamanlarda "ChatGPT"nin qloballaşmasından sonra gənclərin bütün fəaliyyətini ona bağladığını görürəm. Qatıldığım bir tədbirdə gənclərə sual verildiyində sualı "GPT"yə yazıb oradan gələn cavabı oxuduğunu gördüm. Məhz bu görüntü məni bu məqaləni yazmağa məcbur etdi. Bu, gəncliyin fəlakəti deməkdir. Texnologiya insanın yerini almamalıdır. Texnologiyanı lazım olduğu sahədə işlətməliyik. Düşüncəmizi, təfəkkürümüzü inkişaf ettirmək əvəzinə "ChatGPT"yə bağlasaq gələcək necə olacaq? Diqqət etsək görərik ki, dövrümüzün gənclərində nitq qabiliyyəti çox zəifdir, özlərini ifadə edə bilmirlər, çünki təfəkkür güclü deyil.

Gənclərin sənətə yadlaşması da bu faciələrin bir səbəbidir. Misal olaraq musiqi sənətini götürmək olar. Musiqi ilə məşğul olanlar musiqinin insanın ruhunun qidalanmasında, ətrafa baxış tərzinin formalaşmasında, təbiəti hiss etməsində nə dərəcədə böyük rol oynadığını yaxşı bilirlər. Saz-söz ocağı olan ağır Borçalı mahalının gənclərindən "sazdan zəhləm gedir" deyənləri çox görmüşəm. Bu cür yanaşmalar məni çox məyus edir. Sazın, tarın, kamanın musiqi aləti olmaqdan ziyadə bizim tariximizin, kimliyimizin dinməyən dəllalı olduğuna belə hörmət göstərmir yeni nəsil. Özümüzə dəyər vermədikcə kim bizə dəyər verər? Bu fəlakətlərin sonu hara gedir bilmirəm, amma cəmiyyətin ziyanına olduğu aşkardır.

**Cəlal YADİGARLI**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# GƏLƏCƏK BİZİ KEÇMİŞƏ APARIR



Hər bir insan gələcəyin xəyalını qurur, amma bilməz ki, hər gələcək onu keçmişə aparır.

Keçən hər saniyə, hər dəqiqə, hər saat insanı başladığı yerə çatdırmaq üçündür.

Bəlkə də deyəcəksiniz: "Gələcək insanı necə keçmişə apara bilər?" Amma bir az düşündükdə anlayırıq ki, insanın sonu başladığı yerdə bitir.

Buna istər dini, istərsə də fəlsəfi baxımdan yanaşsaq, nəticə dəyişmir.

Ateizmə görə, insanın başlanğıcı bioloji inkişafın tamamlanması, sonu isə bu inkişafın tənəzzülə uğraması, yəni bioloji geriyə dönüş və nəticədə həyatın başlanğıc nöqtəsinə qayıdışıdır.

Dini baxımdan isə insanın başlanğıcı torpaq, sonu da torpaqdır.

Onun çıxış yeri Cənnət, qayıdış yeri də Cənnət olmalıdır.

Adəm (əleyhissəlam) torpaqdan yaradıldı, torpağa qayıtdı, Cənnətdən çıxdı və yenidən oraya dönmək üçün yaşadı.

Nəticədə, hər iki baxışda da son – başladığın yerdir.

Təbiətə nəzər saldığımızda görürük ki, hər şey – Günəş, fəsillər, bitkilər və s. bir dövran içindədir. Amma məharət yalnız bu dövranı müşahidə etmək deyil, dövrandakı ilahi sirri çözməkdir.

Sirrin çözülməsi isə yalnız düşünməklə mümkündür. Lakin insanlar bunun fərqində deyil.

İnsan dünya oyununa, əyləncəsinə, cah-calalına o qədər aludə olur ki, haradan gəldiyini və haraya getdiyini anlaya bilmir.

Bu səbəblə oturub düşünmək lazımdır. Qurani-Kərim ifadəsi ilə: "Fə əynə təzhəbun" – Bu gediş harayadır? – deyə öz-özündən soruşmaq lazımdır.

Gəliş haradandır, gediş harayadır?

Gəldiyimiz yerə qayıtma səbəbimiz nədir və bu qayıdış necə olmalıdır?

Bu məcburi dövr və geri qayıdışda biz nə qədər iradə və seçim sahibiyik?

Dövrandakı sirri düşünüb doğru suallar verdiyimiz zaman doğru cavablar tapa bilərik.

Bəlkə də həyatın mənası nə qədər yaşadığımızda deyil, nəyə doğru qayıtdığımızdadır.

Çünki hər kəs bir gün başladığı yerə dönəcək. O dönüş tapılmış bir mənaya, yoxsa itirilmiş bir dəyərə doğrudur?

**Tural QASIMOV**
*İlahiyyatçı*

# SÜKUTA BOĞULAN DƏYƏRLƏR



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Texnologiya, sürətlə irəliləyən həyat tərzi, maddiyat düşüncəsi günümüzün insanını öz məngənəsində sıxarkən bir sual getdikcə daha çox adamı düşündürür: biz dəyərlərimizi nə zaman itirdik?

Keçmişdə əcdadlarımız həyatlarını mənəvi prinsiplər əsasında qurarkən, bu gün isə vaxt tapanda mənəviyyat yada düşür. Mənəviyyatın səssiz qalması cəmiyyətin ruhunun yavaş-yavaş susması deməkdir. Bu sükut bəzən səs-küylü şəhərlərdə, bəzən sosial mediada yüngülvari paylaşılan fikirlərin arasında gizlənir. Amma ən çox da insanın öz vicdanında baş verir.

Vicdanla yaşamaq sadəcə qanunlara əməl etmək deyil. Bu, başqasının görmədiyi anda da doğru olanı seçməkdir. Müasir dövrdə bu seçimlər daha da çətinləşib. Çünki cəmiyyətin təqdim etdiyi "uğur" modeli çox vaxt mənəvi prinsipləri ikinci plana atır. İnsanlar daha çox görünmək, daha çox qazanmaq, daha çox paylaşılmaq, daha çox təsir etmək istəyirlər. Bu istəklər isə vicdanın səsini boğur, dəyərləri sükuta qərq edir.

Bəs görəsən dəyərlərimizi itirməyimizin səbəbi nədir? – Bunun kökü həm ailədə, həm cəmiyyətdə, həm də fərdin öz iç dünyasında gizlənir. Ailə dəyərlərinin zəifləməsi, övladların mənəvi tərbiyədən çox maddi təminata yönəldilməsi, təhsilin ticarət obyektinə çevrilməsi, medianın manipulyasiya edici təsiri, sosial ədalətsizliyin artması durur. Lakin ən təhlükəlisi isə bu dəyişikliklərə laqeyd qalmağımızdır. Hər birimiz ya susaraq, ya da mühitə uyğunlaşaraq bu sükutun bir parçasına çevrilirik.

Bu mənəvi boşluğun ən acı yönlərindən biri də öz içimizdən olan insanların dini və milli dəyərlərə qarşı laqeyd münasibət bəsləməsidir. Azan səsini eşidib narahat olan, onu qadağan etməyə çalışan şəxslər əslində bir cəmiyyətin ruhuna qarşı çıxırlar. Eyni zamanda dini və milli bayramlarımızı unudaraq daha çox qərblilərin bayramlarını qeyd etməyə üstünlük verənlər bu coğrafiyanın yaddaşına, kimliyinə biganə qalırlar.

Halbuki Avropaya yönəlmək, texnoloji inkişafı, elm və yeniliyi mənimsəmək pis deyil, amma bunu kökümüzdən qoparaq deyil, öz dəyərlərimizə bağlı qalaraq etmək lazımdır. Çünki modernliklə milli-mənəvi dəyərlər bir-birinə zidd deyil, əksinə, biri digərini tamamladıqda cəmiyyət sağlam inkişaf edir.

Mənəviyyatsız inkişaf təməli çatlamış binaya bənzəyir – zahirdə möhtəşəm görünsə də dağılmağa məhkumdur. Yüksək və modern binalar, yollar, texnologiyalar insanı xoşbəxt etmir. İnsan ruhunu doyduran tək şey mənəvi balansdır – ədalət, mərhəmət, halallıq, vicdan. Bu dəyərlər itəndə cəmiyyətin parıltısı qaranlığa çevrilir, çünki ruhsuz inkişaf qəlbsiz bədən kimidir. Həmçinin bu gün heyran qaldığımız Avropada belə turistik gəzinti zamanı ziyarət edilən binaların, tikililərin bir çoxu mənəviyyat ruhuyla inşa edilən binalardır.

Bəs çıxış yolu nədir? – Mənəvi dirçəliş yolu fərdin özünü yetişdirməsindən başlayır. Vicdanla yaşamaq üçün cəsarət lazımdır. Bu, həm də mənəviyyatın yenidən danışmağa başlaması deməkdir. Hər bir vicdanlı insan, hər bir dürüst addım bu sükutu pozan bir səsdir.

Dəyərlərimizi itirdiyimiz nöqtə onları xatırlamağa başladığımız andan bərpa oluna bilər. Unutmayaq ki, dəyişiklik böyük kütlələrdən yox, sakit bir vicdandan başlayır. Cəmiyyətin ruhunu oyatmaq üçün bu səslərə ehtiyac var – az olsa da, güclü olsa da. Çünki bir insanın vicdanı oyananda bir millətin ruhu nəfəs almağa başlayır.

# 11 İLLİK TƏHSİLƏ KEÇMƏKLƏ MƏKTƏBİ, ŞAGİRDİ VƏ MİLLİ TƏDRİS PLANINI NƏ GÖZLƏYİR?



***"Hökumət tərəfindən qeyri-ciddi təşəbbüs, imperator modeli və "terror aktı". Bunun ümumtəhsil komponentinə heç dəxli yoxdur" – Qafqaz Universitetinin professoru və Təhsil Nazirliyində milli tədris planının inkişafı üzrə keçmiş koordinatoru Niko Silaqadze məktəblərdə 11 illik təhsilin tətbiq edilməsi qərarına münasibət bildirib.***

***Mütəxəssis EDU.ARIS.GE-yə verdiyi müsahibəsində şagirdə, məktəbə, milli tədris planına və ümumiyyətlə, ictimaiyyət üçün gözlənilən ziyan barədə ətraflı danışıb. O, həmçinin 11 illik təhsilin əlavə hansı dəyişikliklərə səbəb olmasından, yeni prinsiplərə uyğunlaşmaq üçün sistemdə hansı işlərin aparılmalı olduğundan da söhbət açıb.***

**– Cənab Niko, niyə 11 illik təhsil "pisdir"?**

– Bu suala cavab vermək üçün ictimaiyyətə məktəbin niyə mövcud olduğunu xatırlatmağımız lazımdır.

Məktəb bir növ ailənin davamıdır – şagirdin qayğıkeş mühitdə olduğu və özünü mühafizədə hiss etdiyi institutdur. Uşağa fərdi azadlıq axtarışında, yaxud özünü realizə etməkdə kömək edən məkandır. Bəzən məktəbə müştəri gözü ilə baxırlar, misal üçün, əmək bazarı, yaxud konkret malın marağından irəli gələrək... Amma onun əsas funksiyası həmişə şagirdin fərdi inkişafı olub və indi də belədir. Hətta orta pillədə belə, diqqət nisbətən daha çox peşəyönümlülüyə və ali təhsilə yönəldildikdə də. Buradan irəli gələrək, ümumtəhsil mütəxəssisinin təhsil müddətinin azaldılmasını dəstəkləməsi, yaxud anlayışla başa düşməsi aydın deyil.

Təhsil Nazirliyinin ümumtəhsil üzrə kurator müavini belə təşəbbüsü alqışlayırsa, bu, adi oksomorindir. Təxminən belə: insana söz azadlığını qorumaq tapşırılsın, o isə azad televiziya və qəzetlərin sayının azaldılmasını dəstəkləsin.

**– Ümumtəhsil kuratorunun bu qərara münasibəti necə olmalıdır?**

– Real olaraq, cavab belə olmalıdır: birmənalı şəkildə qəbul olunmazdır.

**– Niyə?**

– Çünki uşağın məktəbdə olma müddətini niyə məhdudlaşdıracağımızı bizə başa salmaları mümkünsüzdür. Bu niyə bəyənilir. Dövlətin uzunmüddətli ümumi təhsili, uşaqların inkişaf etdiyi, özlərini müdafiədə hiss etdiyi (biz böyüklər bir qayda olaraq belə sosial mühitdə yaşamaqdan məhrumuq) məkanı maliyyələşdirməsindən yaxşı bəyanatı ola bilməz. Belə qarışıq ölkədə belə bir məkandan imtina etməyi hansı arqumentlə doğrultmaq olar?

Aydındır ki, bu gün məktəbin çox problemi var. Amma bu onun sosial funksiyasını dəyişmir. Bu funksiyanın qeyri-müəyyən arqumentlərlə azaldılması deyil, onun həyata keçirilməsinin qayğısına qalmaq lazımdır.

**– Daha konkret desəniz, 11 illik təhsil qərarı qəbul etməklə şagird nə itirir, ondan nəyi almış oluruq?**

– Yalnız şagirdin deyil, bütün ictimaiyyətin əlindən şagirdin inkişafına yönəlmiş institutu, ictimai məktəbi alırıq. Məktəb niyə, necə və kim tərəfindən işğal olunur? Bunu dərk etmək üçün ictimaiyyətə milli tədris planının nə olduğunu xatırlatmalıyıq.

Müxtəlif ictimai qrupların məktəbə müxtəlif marağı və münasibəti var. Məsələn, bütün fənn mütəxəssisləri istəyir ki, məktəbdə onun fənni güclü tədris olunsun. Siyasətçilər istəyir ki, onların siyasi partiyasının ideologiyası məktəb şəraitində daha çox təsvir olunsun. Universitetlərin və müxtəlif ictimai strukturların, patriarxlıq, yaxud konkret qeyri-hökumət təşkilatının şəxsi marağı var. Praktiki olaraq hamı istəyir ki, məktəbə "sifarişçi gözü ilə" baxsın və kurikulumun onların istədiyi məzmunda yazılmasına cəhd göstərsin.

Milli tədris planı isə bir növ filtrdir ki, bu tələbləri balanslaşdırır. Onun konsepsiyası və dizaynı imkan yaradır ki, hansısa səviyyədə bütün tərəflərin marağı nəzərə alınsın. Ancaq bu elə edilsin ki, əsas istiqamət itməsin – məktəbi yenidən şagirdin fərdi inkişafının xidmətində saxlasın.

Əgər milli tədris planı yoxdursa, məktəb müxtəlif qruplar arasında hakimiyyət uğrunda mübarizə poliqonuna çevriləcək. Bunun ilk əlamətlərini bu gün artıq görürük – bu yaxınlarda keşişlərin müəyyən dəyərlər haqqında danışmaq üçün məktəblərə daxil olmasına icazə verildi və ümumi təhsilin milli məqsədlərinin yenilənməsi prosesi ictimai razılaşmadan daha çox müəyyən siyasi tezislərin irəli sürülməsinə bənzəyirdi. Lakin bütün bunlar hələ də mövcud milli tədris planı ilə məhdudlaşır, balanslaşdırılır. Təhsil siyasəti sənədi statusunu və aydın konseptual xüsusiyyətlərini itirdiyi bir vəziyyətdə məktəb təhsili getdikcə daha çox hakimiyyətdəki qrupların subyektiv maraqları və zövqləri ilə dolu fənlərin öyrənilməsinə bənzəyəcək.

11 illik məktəblə əlaqədar qərar milli tədris planını məhv etmək deməkdir. Onun konsepsiyası və məntiqi pozulur. Bu 10+2 formatına da aiddir. Bunun çərçivəsində Təhsil və Elm Nazirliyi bir neçə ay əvvəl yenidən işlənmiş fənn standartlarını dərc etdi.

Milli tədris planının tənəzzülü bu gün başlamasa da, bu gün daha çox hiss olunur. Əvvəllər təhsil sisteminin müxtəlif komponentlərinin, məsələn, müəllimlərin peşəkar inkişafı sxeminin və ictimai məktəblərin təsdiq prosesinin niyə milli tədris planı əsasında qurulmadığı mübahisəli idi, lakin indi təhsil proqramlarının bütün çərçivəsinin mövcud tədris planına heç kimin diqqət yetirmədiyi bir vəziyyətlə qarşılaşırıq. Hökumət 11 illik təhsil elan etməklə açıq şəkildə bildirdi ki, ümumi təhsilin inkişafına cavabdeh olan qurumlar ibtidai sifarişi yerinə yetirənlərdir. Onlar bu gün 10+2 sifariş verə və təhsili profilləşdirə, sabah standartların sözdə "keçid versiyalarını" yazıb dərc edə bilərlər, ertəsi gün isə bundan sonra təhsilin 11 illik olduğunu, indiyə qədər deyilənlərin əhəmiyyətsiz olduğunu deyə bilərlər. "Tanrı dedi ki, işıq olsun və işıq oldu"... Kobaxidze dedi ki, 11 sinif olsun və bunu təhsil sisteminin rəhbərləri təkrarladılar, sanki bu təşəbbüsün ya təhsil islahatı, ya da milli tədris planının hazırlanması prosesi ilə əlaqəsi varmış.

**– Yəni siz belə görürsünüz ki, 11 illik təhsilə qayıtmaq qərarı ilə milli tədris planı təhsil siyasəti sənədi kimi qorunub saxlanılmır?**

– Əlbəttə, milli tədris planı sənədi burada daha yoxdur. Təhsil siyasəti sənədini itiririk. Çünki 11 illik təhsil qərarı təhsil ekspertləri dairəsindən gəlmir, nə də onlara bağlanmır. Bu qərarda, ümumiyyətlə, ümumtəhsil mütəxəssislərinin səsi pıçıltı ilə də eşidilmir. Təhsil Nazirliyində işlədiyim dövrdə bununla bağlı çox müzakirələr görmüşəm ki, orta pillə necə qurulmalıdır. Amma tam məsuliyyətlə deyirəm – heç kim, heç vaxt, nə zarafatla, nə ciddi, nə beynəlxalq təcrübəni qeyd etməklə, nə də ölkənin keçmişinə müraciət etməklə 11 illik təhsil haqqında heç nə deməyib. Aydındır ki, bu qərar "yuxarıdan" gəlib. "Aşağıdan" isə artıq 10+2 formatında yenidən işlənmiş tədris planının olduğunu doğru-düzgün izah edə bilmədilər. Ola bilsin, bu format 11 illik təhsil ideyasından daha perspektivli ola bilərdi.

Məlum olur ki, həm mövcud milli tədris planı, həm də 10+2 formatında hazırlanmış yenidən işlənmiş tədris planı dağılıb, mövcud olan heç bir şey artıq məna kəsb etmir. Milli tədris planı artıq siyasət sənədi kimi deyil, ümumi, vahid konseptual sənəd kimi burada, bu məkanda görünmür. Mənim üçün məktəbin funksiyasının səhv başa düşülməsi ilə yanaşı, bu qərar siyasəti müəyyən edən sənədlərdən biri kimi milli tədris planının tamamilə dağılmasını vurğulayır.

Təhsil siyasətinin bununla heç bir əlaqəsi yoxdur. Sadəcə olaraq, Təhsil Nazirliyində çalışan yüksək vəzifəli partiya rəsmilərinin və texnokratik administratorların PR bəyanatları var. Onlar bu məhsulun hansı proseslə inkişaf etməli olduğu barədə heç bir sual vermədən, bu gün bir məhsul, sabah isə başqa bir məhsul üzərində işləmək üçün mövzu üzrə mütəxəssislər təyin edirlər. Bundan daha böyük cinayət müəllimlərdən və direktorlardan partiya aktivləri kimi istifadə etməyə çalışmaları olardı.

**– Milli tədris planının funksiyasının pozulmasını qeyd etməklə bizə çox ağır vəziyyəti göstərmiş oldunuz. Necə düşünürsünüz, təhsil siyasəti sənədinə və ümumiyyətlə, 11 illik tədris təcrübəsinə bu cür ziyan vurmaq nəyə gətirib çıxara bilər? Gürcüstan beynəlxalq təhsil tədqiqatlarında hansı yerdə olacaq? Mövcud vəziyyəti nəzərə alaraq, yaxın və uzunmüddətli perspektivdə şagirdin, məktəbin və təhsilin inkişafı baxımından şəxsən nə görürsünüz?**

– Təsdiqlənmiş faktdır ki, ümumtəhsil sistemində bu gün vəziyyət yaxşı deyil – mən beynəlxalq tədqiqatların nəticələrini nəzərdə tutmuram – onları düzəltməyə ehtiyac yoxdur; əsas problem məktəblərdə təhsil prosesinin lazımi şəkildə getməməsi və təhsilin məqsədlərinə çatmaq üçün lazım olan atmosferin olmamasıdır. Başqa sözlə desək, məktəb ona həvalə olunmuş sosial funksiyanı yaxşı yerinə yetirmir.

Milli tədris planı təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına aparacaq işlərin istiqamətlərini müəyyən edir. Onun tətbiqi şagirdlərin təlim prosesinə daha çox cəlb olunması və məktəbin institusional inkişafı ilə əlaqələndirilir. Təəssüf ki, bu proses o qədər də uğurlu deyil – direktorların siyasi əsaslarla təyin edilməsi, müəllimlərin partiya aktivləri kimi istifadə edilməsi cəhdləri, məktəblərdə dəstək xidmətlərinin qey-

ri-sabit paylanması buna əhəmiyyətli dərəcədə mane olur. Buna baxmayaraq, milli tədris planında göstərilən ayrılmış məqsədli istiqamətlər hələ də təhsil müəssisələrində maraqlı pedaqoji təcrübələrin inkişafına töhfə verir – milli tədris planının proses deyil, məhsul olacağı vəziyyətdə; siyasi sənəd deyil, məsələlərin siyahısı olacağı bir vəziyyətdə, bu cür səylərin artıq mümkün olmayacağı aydındır. Sistemin artıq didaktikanı və inkişaf prosesini düzgün istiqamətə yönəldə biləcək bir "kompası" olmayacaq.

Məktəbin təkmilləşdirilməsi və inkişafı ilə bağlı diskurs tamamilə dağılacaq. Bu tamamilə arxa plana keçəcək. Məktəb bir şey öyrətdiyimiz, onu niyə, hansı metodlarla öyrətdiyimizi bilmədiyimiz bir məkana çevriləcək. Hökumət əsasən təlim və əmək bazarı haqqında danışdığı üçün məktəb, yəqin ki, heç kimin hansı proseslərin baş verdiyini bilmədiyi bir növ təlim mərkəzinə çevriləcək. Məktəb təlim mərkəzi deyil, hələ Con Dyui deyirdi ki, "məktəb həyata hazırlıq deyil, həyatın özü məktəbdir". Beləliklə, bu məktəbin sosial funksiyasının məhvinə gətirib çıxaracaq – bir sözlə bu suala belə cavab verə bilərik.

Bu sanki möhür vurmaq deməkdir, çünki bu birbaşa bir ifadədir – siz heç vaxt 11 illik təhsildən bəhs etməmisiniz, heç vaxt düşünməmisiniz, heç vaxt 11 illik təhsilin nəyisə inkişaf etdirməyin bir yolu ola biləcəyini açırmamısınız, ona görə də danışdığınız, etdiyiniz, müzakirə etdiyiniz, təcrübəniz olan hər şeyə tüpürüm, 11 illik olacaq və qurtardı! Siz oturub məhsulları sıraladınız, müəllimlər isə dərsi məhsula çevirdilər... Siz 11 illik proqrama qərar verdiniz və s.

Yaxın və uzaq gələcəkdə nəyin daha pis olacağı barədə ətraflı danışmaq xoş deyil. İslahat elan edildikdə və Baş nazir, təhsil naziri, onun müavini bu barədə bir ağızdan danışdıqda, müzakirə mövzusu vəziyyətin necə yaxşılaşdırıla biləcəyi olmalıdır, nəyin daha pis olacağı deyil.

**– 11 illik təhsil proqramına keçdikdə şagirdlərin proqramı nə dərəcədə 100 % mənimsəyəcəyini düşünürsünüz, bu mümkündürmü, yoxsa yenə də proqramdan nələrinsə çıxarılacağını gözləməliyik?**

– Nə mövcud, nə də yenidən işlənmiş tədris planı 11 illik formata uyğun gəlmədiyi üçün, şübhəsiz ki, çıxarılacaq.

İlk növbədə, 10+1, yoxsa 9+2 ilə məşğul olacağımıza qərar vermək lazımdır. 10+1 praktik olaraq ümumi təhsilin orta səviyyəsinin ləğvi deməkdir ki, bu da Təhsil Nazirliyinin hazırkı rəhbərləri üçün belə həddindən artıqdır. Müvafiq olaraq, 9+2, yəni doqquz illik əsas və iki illik orta təhsil səviyyəsi qəbul edəcəyimiz daha çox ehtimal olunur. Bu format yenidən işlənmiş tədris planı ilə uyğun gəlməyəcək.

**– Yəni milli tədris planının yenidən nəzərdən keçirilməsinə ehtiyac varmı? Bu yaxınlarda 10 illik baza səviyyəsinin tətbiqi artıq bu cür işlərin həyata keçirilməsinə təkan verib.**

– Əlbəttə. 10+2 formatının əsas xüsusiyyəti profilli tədris idi. Əsas səviyyədə şagird məktəb fənlərinin bütün konturlarını tam şəkildə görə bilirdi, orta səviyyədə isə saat cədvəli iki hissəyə bölünürdü. Bunun təxminən 40-50 faizi məcburi inteqrə olunmuş fənlərlə doldurulmuşdu və bu fənlər vasitəsilə əsas səviyyədə əldə edilən biliklər sözdə "spiral prinsip"ə uyğun olaraq dərinləşdirilmişdi. Qalan saatlar hər bir fənn sahəsi üzrə təklif olunan gücləndirilmiş kurslara həsr olunmuşdu. Uşaq maraqlarına uyğun olaraq onlardan bir neçəsini seçə bilərdi.

Proqramı bu şəkildə qruplaşdırmaq asan deyildi. Proqramın inkişaf prioritetini qorumaq və əsas təhsil üçün tam bir çərçivə təmin etmək üçün çox iş görüldü. Bunun üçün müxtəlif fənlərin tədris mövzuları orta məktəbin əsas səviyyəsinə gətirildi. Bu effekti əldə etmək üçün kimya tədrisinə 7-ci sinifdən başlamaq və hətta 7-10-cu siniflərdə kompüter texnologiyalarının tədrisi zəruri idi.

Əlbəttə ki, 11 illik təhsil olduğu halda bu yanaşma artıq saxlanıla bilməz. Onun tətbiqi hətta dörd illik baza səviyyəsi şəraitində belə asan deyildi.

**– Siz dəfələrlə 10+2 formatında yenidən işlənmiş tədris planını müsbət kontekstdə qeyd etmisiniz. 10+2 sistemi niyə yaxşıdır, bunun nəticələrini yəqin ki, artıq görməyəcəyik, niyə bəyənirdiniz?**

– 10+2-ni bəyənirdim, çünki bu şagirdlərə daha çox azadlıq verirdi və məktəbin funksiyasını gücləndirirdi.

Qeyd etmək lazımdır ki, sistemdə həmişə 12-ci sinifdən düzgün istifadə ilə bağlı problemlər var idi. Hamı onun 2006-cı ildə əlavə edilməsinin bir nailiyyət olduğunu qəbul etsə də, heç bir mərhələdə onu həqiqətən mənimsəmək mümkün olmayıb. Əvvəlcə "Abitur" haqqında kifayət qədər qeyri-müəyyən bir fikir yarandı, sonra aksent "CAT" imtahanlarına yönəldildi və nəhayət 10+2 formatı məktəblərdə sınaqdan keçirilənə qədər keçid standartları da yaradıldı.

10+2 12-ci sinif və orta təhsil probleminə maraqlı bir həll yolu idi və sistemdə maraqlı prosesləri təşviq edə bilərdi. Bu uzun müddət hazırlanmışdır. Onda ümumi təhsilin təsviri əks olunurdu. 11 illik təhsil isə tamamilə vacib bir modeldir. Ümumi təhsil komponentinin bununla heç bir əlaqəsi yoxdur. Görünür, onlar heç məsləhətləşmə aparmayıblar. Bu hökumətin tipik "terror aktıdır", hökumət nə deyirsə desin, əsasdır, qalanının isə əhəmiyyəti yoxdur! Kaliqula atını senator etdiyi kimi, Kobaxidze də təhsil sisteminə 11 sinifli məktəb tətbiq etdi.

**– Və sonda, ümid edirsinizmi ki, bu qədər böyük işin görülməsi zərurəti və bunun üçün çox vaxt tələb olunması bu qərarın həyata keçirilməsinin mümkünsüzlüyünə gətirib çıxaracaq? Axı əvvəllər də bir çox təhsil islahatı ideyası olub ki, onlar gerçəkləşməyib...**

– Düşünürəm ki, belə də olacaq. Ümidimi itirmirəm, bu, həyata keçirilməyəcək, çünki söhbət çox qeyri-ciddi bir təşəbbüsdən gedir.

*Mənbə: edu.aris.ge*
*Gürcü dilindən tərcümə etdi*
***Aynurə ƏLİYEVA***

# YENİ DƏRSLİK, KÖHNƏ PROBLEM



İlk cümlənin bir yazı üçün nə qədər böyük rol oynadığının fərqindəyəm. Bilirəm ki, hamımız ilk cümlə ilə analiz edirik hər bir yazını, ona əsasən qərar veririk oxumağa davam edib-etməyəcəyimizi. Amma inanın ki, bu dəfə o sehirli sözləri tapa bilmədim. Bilmədim, hansı sözləri seçim ki, sizə "yolumuzun sonu yaxşı görünmür" deyə bilim. Ona görə də, xahiş edirəm, başlanğıcı özünüz seçin. Elə seçin ki, oxumağa davam edə biləsiniz.

Kitabsız ev yoxdur, məncə. İndi deməyin ki, əgər belə olsaydı cəmiyyətimiz tamam fərqli yerdə olardı. Nəzərdə tutduğum kitablar sadəcə rəflərdə deyil, zirzəmilərdə, köhnə əşyaların, qış ehtiyatlarının, istifadə olunmayan şeylərin yanında, bir küncə atılmış, beş səhifəsindən üçü əskik olan kitablardır. Bu xatırlatmadan sonra siz də təsdiqləyərsiniz ki, kitabsız ev yoxdur.

Cəmiyyətimizi formalaşdıran kitablardan çox onların qoyulduğu, saxlanıldığı yerlərdir. Nə zirzəmidə toz basmış, nə də hər gün tozu alınıb qızıldan rəflərdə sərgilənən kitablar dəyişdirə bilməz cəmiyyəti. Bizləri, gələcəyi sadəcə iki növ kitab dəyişdirə bilər. Birincisi, elə həyatımızdadır, günü-gündən bizi daha da çıxılmazlığa, biliksizliyə çəkən, "dərslik" adı ilə tanınan o kitablar. Gəlin niyə belə dediyimi sizə də açıqlayım.

Bunu yazarkən o qədər əminəm ki, tək deyiləm... Bəlkə də bu hiss mənə başlanğıcını seçə bilmədiyim bir yazını davam etməyə güc verir. Mən heç bir dərsi məktəb dərsliyindən öyrənməmişəm. Müəllimlərimiz həmişə köhnə kitabları tapıb oradan oxuyub-öyrənməyimizi məsləhət görüblər. Elə vaxtlar olub ki, sadəcə bir kitab tapa bildiyimiz üçün bütün dərsi oradakı məlumatı dəftərə köçürmək üçün xərcləmişik. Buna rəğmən hər gün çiynimizdə çəkisi öz çəkimizin üçdə, dörddə biri olan çantalarla getmişik. Birdən "yoxlama" gələr, başqa kitabdan oxuduğumuzu görər və məktəb üçün problem yaranar deyə...

Elə kitablar olub ki, sadəcə iki dəfə açıb baxmışıq – bir semestrin əvvəlində və bir də sonunda, dərslikləri təhvil verərkən. Onu da birdən arasında dəftərimiz, qələmimiz qalar deyə.

Hə, bir də mən arada vaxtım olanda musiqi kitabını vərəqləmişəm, həyatımda heç görmədiyim, varlığından belə xəbərim olmayan musiqi alətlərinin şəkillərinə baxmaq üçün.

İndi də hərdən qohum-qonşunun uşaqları gəlir yanıma, tapşırıqlarını izah edim deyə. Baxıram ki, kitabları təptəzədir, hamısı da son üç-beş ilin nəşrləridir.

O gün yenə bir uşaq gəldi yanıma. Tapşırığı izah etməmiş dedim mövzu izahına baxım. Bir-iki cümlə oxumuşdum ki, yadıma məktəb vaxtımdan qalmış riyaziyyat kitabı düşdü. Kitablarımı bir az qarışdırdıqdan sonra tapdım. Başladım oradakı izahı oxumağa və yenisi ilə müqayisə etməyə. Yanıma gələn uşağa dedim: "Gedəndə bu kitabı da apar, burada daha aydın izah olunub, həm də mövzuya aid misallar çoxdur". İnanın ki, tarixin təkrarlanmağından heç bu qədər narahat olmamışdım.

Deməli, vəziyyət o qədər gərginləşmiş, pisləşmişdi ki, bizim dövrün kitabları yenilərlə müqayisədə daha yaxşı sayılırdı. Açığı, mən gələcəyin bir müəllimi kimi heç vaxt köhnə kitablarla öyünmək, "bizim vaxtımızda təhsil daha keyfiyyətli idi" demək istəmirəm. Çünki belə olmamalıdır. İnkişaf təhsilə bağlıdır.

Uzun illər nəyinsə dəyişməməsi, sabit qalması elə pisləşməsinə bərabərdir. Qaldı ki, bizdə, sabit belə qala bilmir.

Yenə deyirəm: mən gələcəkdə aldığım təhsillə öyünmək, şagirdlərə mənim bildiklərimi heç vaxt öyrənə bilməyəcəklərmiş kimi hiss etdirmək istəmirəm. Yaxud da sadəcə mənim bildiklərimlə yetinmələrini istəmirəm. Mən də hər il eyni şeyləri əzbərləmiş kimi onlara öyrətməyim, kənara çıxmalar yaşansın, analiz edə bilsinlər oxuduqlarını. Kitablar onları elə formalaşdırsın ki, mən onlara yetə bilmək üçün çalışıb-çabalayım. Lazım olsa suallara yetişə bilməyim, cavab tapmaq üçün həmişə araşdırmalar edim. İndiki və gələcək ilə müqayisədə keçmişin təhsili yetərsiz görünsün. "Yaşlı kadrlar işdən çıxsa, yerinə gələ biləcək gənclər çox azdır", "İndiki oxumaq heç bir şeydir" deyilməyini istəmirəm.

Tək bir çıxış yolumuz var, bünövrəni sağlamlaşdırmaq, təhsili gücləndirmək. Bu da başda da vurğuladığım, ikinci növ kitaba keçid deməkdir. Yəni ehtiyac duyulan müvafiq dərsliklərə. Əks halda, çap olunmuş və olacaq kitabların hamısı ağac israfıdır. Yəni təbiətə həm özümüz inkişaf etməyərək, həm də onu yox edərək ikiqat ziyan vururuq.

Sonda yazımı hər bir məktəbin divarına vurulması lazım olan bir sözlə bitirmək istəyirəm. Riyaziyyat müəllimim həmişə deyərdi: "Siz bir gün riyaziyyatı mənim qədər bilsəniz, bununla öyünməyin. Çünki məndən daha çox bilməlisiniz. Sizdə həm mənim, həm mənim müəllimimin, həm də özünüzün biliyi, oxuduğunuz kitablar cəmlənməlidir. Bu da, əlbəttə, mənimkindən çox olmalıdır".

Şüarımız hazırdır, dəyişiklik isə mütləqdir!

**Hürnisə ƏHMƏDOVA**
*Tbilisi Dövlət Universitetinin Kimya fakültəsinin 3-cü kurs tələbəsi*

# VƏZİFƏ



Vəzifə – vəzifədir, kreslonun növü, adı, otağın böyüklüyü fərq etmir. Əsas odur ki, o kresloda düzgün oturmaq bacarığı olsun. Yıxmaq, dağıtmaq üçün yox, qurmaq, düzəltmək, gələcək nəsillərə nəsə buraxmaq üçün otur. Amma bu gün elə insanlar tanıyıram ki, sırf kreslo sevdasına düşüb, o kresloya oturan kimi dəyişiblər.

Məsələn, Tbilisi Dövlət Azərbaycan Peşəkar Dram Teatrında kreslosuna sarılıb oturan bədii rəhbər kreslonu buraxmaq istəmir. Kresloya əyləşən kimi "mən rahat işləmək, heç kimlə bölüşmədən yemək istəyirəm" deyib bütün işçiləri işdən çıxartdı. Nəticədə bu gün tarixi binamız, mədəniyyətimizin beşiyi, teatrımızın ilk qurulduğu yer bərbad vəziyyətə düşüb. Amma ən acısı bilirsən nədir? Cəmiyyət hələ də onu görmür, daha doğrusu, görməzdən gəlir.

Nə isə, gələk əsas məsələyə. Keçənlərdə "Vəzifə" adlı qısa bir videoçarx hazırlamışdıq. Gərçi bu iş bir çox adamın xoşuna gəlmədi. Niyə? – Çünki bəzilərinin vəzifəyə gəlməsi, məhz həmin videoçarxdakı aktyorun canlandırdığı obrazla birə-bir üst-üstə düşürdü.

Bir çox adam nəinki öz vəzifəsini, hətta vəzifəyə təyin olunan şəxslər belə üzərlərinə düşən vəzifənin mahiyyətini və tələblərini bilmirlər. Məsələn, bizdə tibb bacısı məktəbdə müəllim işləyir, keçmiş polis işçisi mədəniyyət sahəsində aktyora dərs keçir. Bizdə aktyor səhnəsiz, yazıçı oxucusuz qalıb. Bizdə iki bənd şeir yazana şair, mollaya isə müəllim deyirlər. Çünki bizdə hər şey tərsinədir, heç kim öz işini görmür. Məncə, hər insan öz bildiyi işi görməlidir. Yəni hər işə uzun burnunu soxmamalıdır (fındıq burun da ola bilər).

Gələk vəzifə videoçarxımıza. Həkimin yanına gələn Yaşar bəy öz analizlərinin cavabına baxmaq istəyir. Həkim nəticələrə göz gəzdirəndə təəccüblənir, bir anlıq susur, dərindən nəfəs alır. Bu, Yaşarı çox qorxudur. O, Tofiq həkimdən soruşur:

– Nə olub, doktor? Niyə belə dərindən of çəkirsiniz? Mənim xəstəliyimin səbəbi, adı nədir?

Həkim sakitcə cavab verir:

– Sizin xəstəliyinizin adı "vəzifə"dir.

Bəli, bu gün bir çox insanın xəstəliyi məhz vəzifədir. İllərlə çırpınıb kiminsə maşası olanlar var. Düşünürlər ki, nə zamansa onlara da vəzifə veriləcək. Və o gün gələndə bilmirlər ki həmin adamların dediyi ilə oturub-duracaqlar. Bəziləri elə düşünür ki, bu partiya alınmadı, keçim digər partiyaya, bəlkə orada nəsə düzələr. Xeyr, elə deyil. Oradan-bura, buradan-ora keçməyinizin əsas səbəbi bəllidir: "vəzifə". Çünki bəzilərinizdə xalq yox, kreslo sevgisi var.

Kreslo demiş, bizdə vəzifəyə gəlməmişdən öncə oturacağı kreslo haqqında plan qurur. Görəsən, necə yeyəcəm? Hansı obyekti öz üzərimə keçirəcəm? Hansı torpaq sahəsini alacam?.. Bizdə "vəzifə xəstəliyi" məhz bu kriteriyalarla ölçülür. Bizdə çoxları vəzifəyə gələndə bədən ölçüsü S (slim) olur, amma bir ildən sonra XXL-ə çevrilir. Bir də, bizdə seçkilərdən sonra hamı birdənbirə siyasi eksperta çevrilir və mədəniyyətdən çox siyasəti izləyir.

Bizim bölgədə hələ görməmişəm ki, kimsə mədəni səhifələri, teatrı, rəsm sərgilərini izləsin. O bir yana, hətta, sosial şəbəkələrdə mədəniyyət qruplarında belə siyasi xəbərlər paylaşılır: "Filan partiya uduzdu", "Jalə xala seçilmədi" və sair. Hətta xəbər saytlarının mədəniyyət bölməsində belə siyasətçilərdən yazılır. Adamdan soruşarlar: bəs bu ölkədə heç mədəni tədbirlər olmurmu? Heç sərgilər, filmlər, kitab təqdimatı, tamaşalar keçirilmirmi? Əlbəttə, olur, keçirilir, amma bu xəbərlər çox vaxt saytların reytinqini aşağı salırmış, sən demə. Çünki kütləyə ayfonun neçəncisi çıxdı, kimin qızı kimə qoşulub qaçdı kimi "xəbərlər" maraqlı gəlir, mədəniyyət xəbərləri yox. Niyə biz hər zaman kütlənin istədiyini verməliyik? Olmazmı arada o kütləyə mədəniyyətimizi də təbliğ edək?

**Binəli İSLAMOĞLU**
*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# TİFLİS MƏDƏNİYYƏTİNİN TACINDA AZƏRBAYCAN SƏHNƏSİ



Mən ilk dəfə idi Rustaveli teatrında olurdum. Tarixi binaları çox sevirəm, belə məkanlarda mənim qulağıma fayton atının nal səsi, qəzet satan uşaqların çığırtısı, qoçuların, kintoların qəh-qəhəsi gəlir. Bəzən mənə elə gəlir ki, o neft milyonçularını da indicə görəcəm və onlara təşəkkür edəcəm ki, nə yaxşı siz belə gözəl binalar inşa etdirdiniz.

Məktəb illərində Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabını elə maraqla oxumuşdum ki, özümü bir-birinin bəhsinə mülklər tikdirən Bakı və milyonçular şəhərinin o dövründə hiss edirdim. Bu binalar içində Opera və Balet Teatrı maraqlı tarixçəsiylə ən sevdiyim bina idi. Bakının neft xəzinəsi maraqlı talelərlə neçə milyonçular yetirdi. Əlbəttə, yalnız birindən yazım:

Neft maqnatı Mayılovun Bakıya qastrola gələn opera müğənnisinə – "Bir də nə zaman gələcəksiniz?" – sualına müğənni kəskin – "Heç vaxt" – söyləyib, sonra əlavə edib: – "Opera səhnəsi olsa gələrdim!" Cavab, əlbəttə, milyonçunun qüruruna toxunub və "Sizin şərəfinizə gələn il bu zamana mütləq təşkil edəcəm" deyib.

Milyonçular öz aralarında mübahisə edərkən "Bir ilə opera teatrı yaradacam" fikrinə Tağıyev mümkünsüz deyib və mərc gəliblər ki, əgər vaxtında başa çatsa xərcini Tağıyev ödəyəcək. Beləliklə, binanın tikintisi 10 aya başa çatır və xərci Tağıyev (bəzən Muxtarov da yazırlar) ödəyir. Başı müsibətlər çəkən bina Bakının mərkəzini – Nizami (Tarqovıy) küçəsini gözəlləşdirən tarixi abidələrdən biridir.

Rustaveli teatrının sevdiyim tarixi bina üslubu ilk addımdan məni valeh etdi. Böyük zalı isə ilk görünüşdə Bakı Opera və Balet Teatrını xatırlatdı. İlk anda kövrəldim, Bakı üçün darıxdım, sonra alışdım...

Sizə də maraqlı olar deyə bir az tarixə səyahət edək, sonra gələrik bu günə.

Bakının neft qoxusuna Nobellərdən Rotşildlərə qədər çoxları gəlmişdi. Neft milyonçuları içində Mantaşyev də qazanan və qazandıranlar siyahasında idi. O, erməni əsilli, Tiflis doğumlu bir neft maqnatı və xeyriyyəçi idi.

Cənubi Qafqazın mədəniyyət beşiyi Tiflisin mərkəzində tarixi 1887-ci ildən başlayan "Sənətkarlar Cəmiyyəti Evi" fəaliyyətə başladı və indiki Rustaveli prospekti (keçmiş Qolovin) boyu bina inşa olundu. Bir çox tanınmış rəssam və heykəltəraşların yolu bu binadan başladı və davam etdi. Sonra gürcü ziyalıları, sənətsevərləri mədəni həyatı canlandırmaq üçün burada teatr binasının inşasını təklif etdilər. 1898-ci ildə teatr binasının inşası başladı. Məhz bu binanın maliyyəsini Mantaşyevin qarşıladığı yazılır. Bina xarici və daxili gözəlliyi ilə bir sənət əsəridir. Düzdür, Bakı opera teatrına oxşasa da, ondan həm böyükdür, həm də xeyli fərqləri var.

Rustaveli teatrı Bakı opera tetrından 10 il qabaq fəaliyyətə başlamaqla həm də çoxşaxəli idi. Rustaveli teatrı üslubca barokko, rokoko, klassik, Bakı opera teatrı isə barokko, modern üslubda işlənib. Bakı Opera və Balet Teatrı məhz musiqi, teatr yönümlü akustik olsa da, Rustaveli teatrı böyük zallı, mədəniyyət fəaliyyətli, eyni zamanda divarları rəsmlidir. Rustaveli teatrının tutumu 850 nəfərə çatır, Bakı opera teatrı isə 600 nəfər.

Gözəlliyi ilə göz oxşayan paytaxtımızın ilk mədəniyyət mərkəzidir.

Gürcüstan və Azərbaycan Mədəniyyət Nazirliklərinin və Gürcüstanda Azərbaycan Səfirliyinin dəstəyi ilə seçilmiş ziyalılarımızı, tələbələrimizi xüsusi dəvətnamə ilə "Şükriyyə"nin harayına yığdı.

İlk foyeyə daxil olanda tamaşaçını sanki teatr tarixi sərgisi qarşıladı. Hər kəs ayaq saxlayıb fotosərgini izləyirdi. Azərbaycan teatr tarixini zənginləşdirən görkəmli şəxsiyyətlərin fotoları və bioqrafik məlumat da bir maariflendirmə idi. Yaradıcılığı Tiflisdən başlayan bir çox yaradıcıların da fotoları sərgini rövnəqləndirirdi. Xoş təəssüratla böyük zala daxil olduq.

Azərbaycan Akademik Milli Dram Teatrının tanınmış aktyorlarının təmsil olunduğu bu tamaşa, təbii ki, həmişəki kimi möhtəşəm idi. Məncə, heç vaxt nə bu zal belə qaynar olmamışdı, nə də bu aktyorlar belə tamaşaçı görə bilməzdilər. Bunun məcazi və həqiqi mənası vardı...

Bu soyuq payız axşamı Kvemo Kartli – Borçalının müxtəlif ərazilərindən hətta xüsusi avtobus, taksi kirayələyib gələn tamaşaçıları axşam qaranlığında gətirən, gecə qaranlığında uzaq yola qaytaran qüvvənin cazibəsini, gücünü bizim özümüz qədər kimsə duya bilməz.

Qadınlar Şükriyyənin taleyinə kövrəlib, kişilər qəhərlənib, gənclər "bu günə şükür" deyib tamaşa boyu sükutla izlədilər. Tamaşa sona çatdı. İşıqlar söndü. Sanki hər kəsin içində gizlənib tamaşaya köklənən insani hiss getdi və bir millət olaraq sevgi önə keçdi. Alqış möhtəşəm zalda əks-səda verdi. Yox, dayanmadı. Kimsə də ilk dayanmaq istəmirdi. İçindəki həsrəti, bağlı sərhədlərin soyuqluğunu ovcundakı istiliklə isitmək istəyirdi. Alqış dayanmırdı. Aktyorlar vidalaşmaq istərkən dönə-dönə səhnəyə qayıdırdılar. Bütün böyük zal ayaqüstə idi. Alqış səsi kəsmirdi. Kövrək insanlar duyğulanmışdı... Azərbaycan sevgisi, doğmalıq həsrəti alqış sədalarıyla ovunurdu. Aktyorlarımız gül-çiçək ağuşunda əl sallayırdılar. Nəhayət, pərdə bağlandı və alqış hələ də davam edirdi.

Yan lojada oturduğumdan mən nə qədər adamın göz yaşlarını sildiyinin şahidi oldum. O göz yaşları tək Şükriyyələrin taleyi üçün deyildi, həm də bugünkü günün doğmalığından qəhərlənmişdi.

Bəli, bunları mənim kimi hiss etmək üçün mütləq o zalda olmalı idin! Mən tanıdığım neçə nəfər bu gündən o qədər məmun idilər ki... Bizə yaşatdıqları bu hisslər üçün təşkilatçılara sonsuz təşəkkür edirəm!

Sevə-sevə ötən yaxın günü xatırladı və kövrəldi: **Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# LERMONTOVUN “AŞIQ QƏRİB” NAĞILININ GÜRCÜ VARİANTLARI İLƏ MÜQAYİSƏSİ



*(əvvəli ötən sayda)*

Bu variantı kabarda variantı kimi, Lermontovun nağılının təsiri ilə işlənməsini düşünməyimiz olmazdımı, bu halda süjet və epizodik oxşarlıqlar qanunauyğun olardı və odur ki, Lermontovun nağılının mənbəyini aramaq məsələsi də həll olunardı. Lakin bu heç də belə deyil. Süjet eyniliyinə və epizod oxşarlığına baxmayaraq gürcü variantında qəhrəmanların adları fərqlidir. Gürcü mətnində qadının adı Şahsənəmdirsə, Lermontovda Mahul-Mehridir. Bu baxımdan S.Yaqubovanın fikirləri də maraqlıdır ki, Mahul-Mehri Mahu-Mehridən yaranmış ola bilər, bu da ən gözəl, ən yaraşıqlı mənasını verir və elə bu təşbehlə də o adlandırılmışdır. Bu halda Şahsənəmin Mahu-Mehri təşbehi olmalı idi. Süjetin şifahi nəqli prosesində, güman edildiyinə görə, Mahu-Mehri təşbehi itmiş və yalnız qəhrəman qadının həqiqi adı Şahsənəm qalmışdı. Göründüyü kimi, Lermontov bu təşbehə diqqət yetirmiş və qəhrəman qadının adı kimi istifadə etmişdi.

Aşıq Qəribin bizim əlimizdə Lermontovun mətni ilə daha çox oxşarlıqların aşkarlandığı digər variantlar da var. Bu, Şuaxevi rayonunun Papoşvilebi kəndində 90 yaşlı Esma Putkaradzedən yazıya alınan, Batumi Elmi Təhqiqat İnstitutunun Folklor Arxivində mühafizə olunan mətndir (9).

Axalsixe (Aslan Bliadzenin) mətnindən fərqli olaraq acar variantında türk şeir-mahnılarına rast gəlinmir ki, bununla da dastanın janr xüsusiyyəti pozulmuşdur. Bu mətn öz kompozisiyası ilə Lermontovun əsəri kimi nağılı təşkil edir. Şübhəsiz, acar mətni lap başdan dastan formasında ola bilərdi, lakin türk şeir-mahnılar nağılçı tərəfindən vaxt keçdikcə unudulmuş və dastan nağıl şəklinə düşmüşdür. Acar variantında Lermontovun nağılının bənzəri olan çox epizodlara rast gəlirik. Mətnə uyğun olaraq Tiflisə gələn: “Aşıq Qərib ata mindi, yalmanına yataraq atı bərk çapdı “düzə” (düzənliyə) çıxdı, at çatladı. Nə edə bilərdi, orada oturub ağladı. Ona bir atlı yaxınlaşıb dedi:

– Ey yolçu, niyə ağlayırsan?

– Atım öldü və ona görə də ağlayıram (Şahsənəm ərə gedir və at da öldü, ağlamazmı?!). Atlı ona dedi ki, mən gedəcəyəm, sən də arxamca gəl. Heybəsini götürdü və yəhərin qaşından asdı. Necə gedirsən. Nə etsin, çata bilmirdi. Geridə qaldı. Atlı onu gözləyib dedi:

– Hara gedirsən?

– Qarsa gedirəm (Hara getdiyini demədi, xətir etdi). Otur mənim tərkimə, – dedi. O da oturdu və atlı dedi ki, gözlərini yum, yumdu, açanda gördü ki, artıq Qarsdadır. Atdan düşmək istəyəndə atlı dedi ki, hara gedirsən?

Çəkindi, lakin dedi ki, Ərzuruma gedirəm. Ata mindi, gözlərini yumdu, bir “soluxa” (göz qırpımında) atdan düşdü, çonqurunu və heybəsini götürdü. Atlı ona dedi ki, hara kimi gedirsən? – Tiflisə getməliyəm, – dedi. Yenə ata mindi. Gözlərini yümdü, açan kimi gördü ki, Tiflisdədir”.

Lermontovda bu hissə acar mətninin dəqiq oxşarıdır: “Ступай за мной”, – сказал грозно всадник. “Как я могу за тобой следовать”, – отвечал Ашик, – “твой конь летит, как ветер, а я отягощен сумою”. – “Правда: повесь же суму свою на седло мое и следуй”. Отстал Ашик-Кериб, как ни старался бежать. “Что ты отстаешь?” – спросил всадник. “Как же я могу следовать за тобою, твой конь быстрее мысли, а я уж измучен”. – “Правда, садись же сзади на коня моегои говори всю правду, куда тебе надо ехадь”, – “Хоть бы в Арзрум поспет нонче”, – отвечал Ашик. – “Закрой же глаза”; Он закрыл. – “Теперь открой”. Смотрит Ашик: перед ним белеют стены и блещут минареты Арзурума. “Виноват, Ага, – сказал Ашик, – я ошибся... мне надо Карс”. – “Закрой же опять глаза, теперь открой”. Ашик себе не верит – то, что это Карс. Он упал на калени и сказал: “Мне по-настояшему надо в Тифлис”. “Экой ты неверный”, – сказал сердито всадник, – “но нечего делать, прощаю тебе: закрой же глаза. Тепер открой”, – прибавил он по прошествии минуты. Ашик вскрикнул от радости: они были у ворот Тифлиса” (10).

Acar variantına uyğun olaraq Aşıq Qərib atdan düşəndə atlı dedi ki, atın ayağı altından bir ovuc torpaq götür cibinə tök. Sənin “anan” kordur. Bunu onun gözünə çəkən kimi sağalacaqdır. O, torpağı götürüb qalxanda atlı və at yox oldular. Anladı ki, ona kömək edən Həzrət Əli imiş”.

Lermontovda oxuyuruq: “Наклонись”, – сказал тот, улыбнувшись, – “и возьми из-под копыта коня комок земли и положи себе за пазуху: и тогда, если не будут верить имтине слов твоих, то вели к себе привести слепую, котороя семь лет уже в этом положении, помажь ей глаза и она увидит”. Ашик взял кусок земли из-под копыта белого коня, но только он поднял голову, всадник и конь исчезли; тогда он убидился в душе, что его покровитель был не кто иной, как Хадерилиаз” (св. Георгий) (11).

Acar mətninə uyğun olaraq “Şahsənəmi zorla Xurşid bəyə verirlər. Qırx gündür ki, “düyün” edilir. Şahsənəm ona getmir. Bir əlində “ağı” tutmuş, o biri əlində isə xəncər. Belə ki, onu çox narahat etsələr ya ağını içəcək, ya da xəncərlə özünü öldürəcəkdir”.

Lermontovda oxuyuruq: “ А Магуль-Мегери... держала в одной руке чашу с ядом, а в другой – острый кинжал: она поклялась умереть прежде, чем опустить голову на ложе Куршуд-бека” (12).

Aşıq Qərib tərəfindən anasının müalicə olunması epizodunda da dəqiq oxşarlıq var. Acar mətnində: “Sən Aşıq Qərib deyilsən”, – dedilər, – “o, belə tez gəlməzdi”.

O da dedi ki, Həzrət Əli mənə kömək etdi, onun atı ilə gəldim. Uçdum da gəldim. Səhər Qarsa gəldim, günorta Ərzuruma, axşamüstü isə Tiflisə. İnanmadılar.

“Əgər inanmırsınızsa, torpaq gətirmişəm. Bir kimsə “koru” gətirin, baxaq, görək”. Onun anasını gətirdilər. Torpağı onun gözlərinə çəkdi. Qoca arvadın gözünə işıq gəldi”.

Lermontovda: “Ты лжёшь; как можно из Халафа приехать сяда в три дни? (сиъ).

– Утренный намаз творил я в Арзиньнской долине, в полуденный намаз в городе Карсе, а вечерний намаз в Тифлизе. Аллах дал мне крылья и я прилетел... в доказазательство истины – отвечал Ашик... – лучше всего приведите мне слепуя, которая бы семь лет уж не видала свету божьего и я возвращу ей зрение. Сестра Ашик-Кериба, стоявшая у двери и услышав такую речь, побежала к матери... и взяв ее под руку, привела старуху на пир свадебный... тогда Ашик взял комок земли из-за пазухи, развёл её водой и намазал матери глаза... и мать его прозрела” (13).

Eyni epizodlardan başqa, acar variantı onunla da maraqlıdır ki, Lermontovun nağılındakı kimi, aşıq Qəribin rəqibini yayılmış Şahvələd əvəzinə Qurşum bəy (Lermontovda Xurşid bəy) kimi göstərir. Lakin, göründüyü kimi, Lermontov bu dastanın başqa variantını da dinləyibmiş. Andronikovun göstərdiyi kimi, Lermontovun arxivində saxlanılan “Aşıq Qərib”in əlyazmasında şair Xurşid bəyin yanında Şahvələdi də yazmışdır, lakin silib yenidən Xurşid bəyi saxlayıb.

Konkret olaraq Lermontova nəql edənin, onu Qafqaz folklorunun zəngin xəzinəsi ilə tanış edənin kimliyi haqqında mühakimə yürütmək çətindir. Bu barədə nə yazılı məlumat var, nə də onun müasirlərinin xatirələri. Göründüyü kimi, Lermontov bu dastanı sonra yenidən işləmək, bu mövzuda yeni əsəri yaratmaq niyyətində imiş. Onun arxivində saxlanılan bu nağılın sonradan işləməsinin izi görünmür. Göründüyü kimi, o, yalnız düzgün dəqiqliyi ilə yazılan dastanın mətnini təşkil edir, halbuki dastanı xarakterizə edən kompozisiya quruluşundan – nəsr təhkiyyəsinə paralel olaraq qəhrəmanların dialoq və hisslərinin şeir-mahnıları ilə verilməsindən məhrumdur. Lakin nağılın elə öz mətnindən müəyyən olunur ki, Lermontov Şərq folklorunun özünəməxsus xüsusiyyətlərinə malik olan bu mürəkkəb janra yaxşı bələd idi. Nağıla uyğun olaraq Aşıq Qərib üzüm bağında yuxuya getmişdi. Bu zaman Mahul-Mehri öz rəfiqələri ilə oradan keçirdi. И одна из них, увидев спящего Ашика, отстала и подошла к нему: “Что ты спишь под виноградником – запела она, – Магул-Мегери слышала её песню и стала её бранить” (14).

Məlumdur ki, burada dastanı xarakterizə edən, tərcüməsi də Lermontova çatdırılan şeir-mahnılar olardı.

Odur ki, nağıl mətninin bütün mövcud versiya ilə müqayisə edilməsi onun dastanın gürcü variantları ilə şübhə doğurmayan yaxınlığını təsdiq edir. Şübhə yoxdur ki, o, dastanın bu gün də Gürcüstanda yayılmış və bu gün də müsəlman gürcüləri arasında təsdiq olunmuş versiyasından əmələ gəlmişdir.


***İstifadə olunan ədəbiyyat:***

9. M.Лермонтов, 1969, с. 188.
10. Elə orada, səh. 189.
11. Elə orada, səh. 190-191.
12. Elə orada, səh. 190-191.


Gürcü dilindən tərcümə etdi
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR
2025-Cİ İL
№ 19 (236)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAKALAVR TƏHSİLİ 3 İL, MAGİSTRATURA İSƏ 1 İL OLACAQ



“İstisna ixtisaslardan başqa 3+1 sisteminə keçməliyik. 3 il bakalavr, 1 il magistratura təhsili olacaq. Hər iki halda bu gün təmin edilməmiş, cid-di şəkildə müəyyən edilmiş məqsədlər olmalıdır”. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ali təhsilin islahat konsepsiyası layihəsinin təqdimatında bildirib.

Onun sözlərinə görə, müəyyən analiz aparıblar və düşünürlər ki, istisna edilən ixtisaslardan başqa 3+1 sisteminə keçilməlidir. Burada 3 il bakalavr, 1 il magistratura nəzərdə tutulur.

“Üç il bütün ixtisaslar üçün tam kifayətdir. Əlbəttə, tibb və oxşar ixtisaslar istisnadır. Digər hallarda, praktiki olaraq bütün hallarda, üç ildə bakalavr və bir ildə magistratura səviyyəsində təhsil almaq mümkündür.

Eləcə də yaxın zamanlarda başqa istiqamətlərdə də müəyyən planların təqdimatını düşünürük və fikirləşirik ki, məktəblərin bir qismində də 11 illik təhsil proqramına keçməliyik. Bu istiqamətdə də Təhsil Nazirliyi fəal işləyir”, – deyə Baş nazir bildirib.

*Mənbə: edu.aris.ge*

## BEYNƏLXALQ TƏHSİL MƏRKƏZİ VƏ PEŞƏ BACARIQLARI AGENTLİYİ LƏĞV OLUNUR



Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin yaydığı məlumata əsasən, Beynəlxalq Təhsil Mərkəzi və Peşə Bacarıqları Agentliyi ayrı ad altında fəaliyyət göstərməyəcək.

Məlumatda bildirilib ki, Təhsil, Elm və Gənclər Nazirliyində yenidən qurma işləri çərçivəsində qurumun fəaliyyətinin effektivliyini artırmaq məqsədi ilə bir neçə struktur dəyişikliyi həyata keçirilib. Nazirliyin mərkəzi aparatına daxil olan Gənclər Departamentinin funksiyalarını Gənclər Agentliyi həyata keçirəcək.

Beynəlxalq Təhsil Mərkəzi və Peşə Bacarıqları Agentliyi ayrıca qurum olaraq fəaliyyət göstərməyəcək və nazirliyin mərkəzi aparatında fəaliyyətini davam etdirəcək.

İnlüziv təhsil istiqamətində də yeniliklər var. Belə ki, valideynlər və məktəb ictimaiyyəti nümayəndələrinin tələbi əsasında nazirliyin qərarı ilə nazirliyin mərkəzi aparatında yeni struktur vahidi – Strateji və İnklüziv İnkişaf Departamenti yaradılıb.

Xatırladaq ki, 2025-ci ilin 1 sentyabrından Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyinin də fəaliyyəti dayandırılıb.

*Mənbə: etaloni.ge*

## GÜRCÜSTANIN MÜDAFİƏ QÜVVƏLƏRİNİN SAYI 37 MİN HƏRBÇİDƏN ÇOX OLMAYACAQ



Gürcüstan hökumətinin qərarına əsasən, 2026-cı ildə Müdafiə Qüvvələrinin sayı 37 min hərbçidən çox olmamaqla müəyyən ediləcək. Bu barədə Gürcüstan müdafiə nazirinin müavini Qriqol Qiorqadze parlamentin Müdafiə və təhlükəsizlik komitəsinin iclasında bildirib.

Onun sözlərinə görə, hər il dövlət büdcəsi layihəsi ilə paralel olaraq parlamentə Müdafiə Qüvvələrinin sayının təsdiqi ilə bağlı hökumət fərmanı təqdim olunur. Nazir müavini deyib ki, 2026-cı il üçün Müdafiə Qüvvələrinin sayı 2025-ci illə müqayisədə dəyişməz olaraq 37 min nəfərdən çox olmayan hərbi qulluqçu ilə müəyyən edilib.

İclasda parlament çoxluğu üzvlərinin qanunvericilik təşəbbüsü ilə hazırlanmış “Gürcüstanın Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında” qanun layihəsinə də baxılıb. Məcəlləyə ediləcək dəyişikliyə əsasən, ayrı-ayrı vergi ödəyiciləri haqqında müəyyən edilmiş məlumatları alan şəxslərin dairəsinə Müdafiə Nazirliyi də əlavə olunacaq. Müvafiq olaraq, icazə şərtlərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək üçün nazirliyə həm vergi, həm də gömrük sirrini tələb etmək səlahiyyəti veriləcək.

Müdafiə və təhlükəsizlik komitəsinin üzvləri müzakirə olunan məsələlərin plenar iclasa çıxarılmasını dəstəkləyiblər.

## CARİ İLİN ÜÇÜNCÜ RÜBÜNDƏ GÜRCÜSTANIN TURİZM GƏLİRİ 6,2 MİLYARD LARİ TƏŞKİL EDİB



Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata görə, 2025-ci ilin üçüncü rübündə ölkəni 3 milyon turist ziyarət edib, turizm gəlirləri isə 6,2 milyard lari olub.

Məlumata əsasən, 2025-ci ilin üçüncü rübündə ölkəyə gələn beynəlxalq ziyarətçilərin sayı 2,5 milyon nəfər olub, bu da 2024-cü ilin analoji göstəricisindən 6,8 faiz çoxdur. Onlardan 2,2 milyonu turist kimi qeydə alınıb və bu rəqəm illik müqayisədə 7,6 faiz çoxdur. Ümumilikdə 2 milyon turist xarakterli səfər həyata keçirilib ki, bu da illik müqayisədə 9 faiz çoxdur.

2025-ci ilin üçüncü rübündə Gürcüstana səfər edənlər içərisində Rusiya vətəndaşları çoxluq təşkil edib.

Hesabat dövrü ərzində beynəlxalq ziyarətçilərin Gürcüstanda xərcləri 6,2 milyard lariyə çatıb. Bu da illik müqayisədə 8,6 faiz çoxdur.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.